# Füzuliyə geri dönən ailələrin sayı 500-ə çatdı





Bu mərhələdə Füzuli şəhərinə daha 30 ailə köçürülüb. Bununla da indiyədək Füzuli şəhərində 500 ailənin, 1854 nəfərin daimi məskunlaşması təmin edilib.

İndiyə qədər 175 ailə (871 nəfər) Zəngilan rayonunun Ağalı kəndinə, 20 ailə (90 nəfər) Tərtər rayonunun Talış kəndinə, 408 ailə (1555 nəfər) Laçın şəhərinə, 500 ailə (1854 nəfər) Füzuli şəhərinə, 203 ailə (783 nəfər) Laçın rayonunun Zabux kəndinə qayıdıb. Ümumilikdə isə 1306 ailə - 5153 nəfər doğma yurduna qovuşub.

## "Çox sevinirik ki, biz də Füzuliyə qayıtdıq"

Bu günü - doğma yurda qayıdışı üç onillik gözləyən füzulililər təəssüratlarını bölüşüblər. Doğma elinə qovuşduğu üçün sevinci çöhrəsindən oxunan keçmiş məcburi köçkün Nərminə Quliyeva Füzuliyə böyük həvəslə qayıtdıqlarını söyləyib. Məcburi köçkün düşəndə 30 yaşlarında olduğunu bildirən N.Quliyeva yurdunda xoş günlər keçirdiklərini bildirib. O, Füzulidə bundan sonra şad günlər görəcəyinə inandığını və övladına orada toy edəcəyini vurğulayıb.

Zəfər Gününü bizə yaşadan Azərbaycan Ordusuna təşəkkür edən Füzuli sakini Fazil Ağayev deyib ki, qəhrəman hərbçilərimizin sayəsində doğulub boya-başa çatdığı yerlərə qayıdıb. Müharibə veteranı olduğunu deyən F.Ağayev şəhid olan döyüş yoldaşlarını xatırlayıb, Vətən müharibəsində qəhrəman Azərbaycan Ordusunun şəhidlərimizin qisasını aldığını vurğulayıb.

Keçmiş məcburi köçkün Nüşabə Ağayeva söyləyib ki, tamamilə dağıdılmış şəhərlərin, kəndlərin bərpası sürətlə davam edir və bu, böyük sevinc doğurur: "Artıq iki ildir ki, insanlar öz yurdlarına qayıdırlar. Bu günləri görmək bizə də nəsib oldu. Çox sevinirik ki, biz də Füzuliyə qayıtdıq".

## Bu il cəbrayıllılar da yurdlarına qovuşacaqlar

Böyük Qayıdışa dair proqram çərçivəsində ağalılılar, füzulililər, laçınlılar və talışlılar mərhələli olaraq əzəli torpaqlarına dönürlər. Bu ildən cəbrayıllıların da doğma yurdlarına köçürülməsi işlərinə başlanılacaq. 2024-cü ildə Cəbrayıl şəhərinə 2158 keçmiş məcburi köçkünün qayıtması nəzərdə tutulub. Hazırda şəhər mərkəzində 33 yaşayış binası inşa olunur. 4-5 mərtəbədən ibarət bu binalarda 712 mənzil olacaq.

İşğaldan azad edilmiş ərazilərimizdə həyata keçirilən layihələrin miqyası olduqca böyükdür. Yaşayış yerlərinin inşası ilə yanaşı, Qarabağ və Şərqi Zəngəzurda beynəlxalq hava limanları, avtomobil və dəmir yolları, körpülər, tunellər, su anbarları, elektrik enerjisi stansiyaları, içməli su xətləri, sosial-iqtisadi infrastrukturlar yaradılır. Bu da dövlətimizin iqtisadi gücündən xəbər verir.

Ötən dövrdə həyata keçirilən genişmiqyaslı layihələr onu deməyə əsas verir ki, vətəndaşlarımızın məskunlaşdırılması ilə bağlı qarşıya qoyulan vəzifələrin öhdəsindən uğurla gəlinir. Bu ondan xəbər verir ki, tezliklə bütün məcburi köçkünlər əzəli torpaqlarına qovuşacaqlar.

***Ülkər XASPOLADOVA,***
***"Azərbaycan"***

Azərbaycan.-2024.- 27 yanvar, № 17.- S.16.